20 sentyabr Neftçilər Günüdür!
37 (1292) • 21-27 sentyabr 2023-cü il
# IQTİSADİYYAT
www.iqtisadiyyat.com
Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# QARABAĞ AZƏRBAYCANDIR!

## SEPARATÇILAR TƏSLİM OLDULAR



**Lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olunub**

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq 2023-cü il sentyabrın 20-də saat 13:00-da aşağıdakı şərtlər altında lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olunub:

*1. Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərksilah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır.*

*2. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir.*

*3. Yuxarıda qeyd olunan proseslərin Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməsi təmin edilir.*




## SEPARATÇILAR QARABAĞDAKI MÖVQELƏRİNİ TƏRK EDİRLƏR

Silah-sursatı tükənən Ermənistan silahlı qüvvələri birləşmələrinin hərbi qulluqçuları pərakəndə şəkildə təşviş içində döyüş mövqelərini tərk edirlər.

Qeyd edək ki, üçtərəfli bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə 19-20 sentyabr tarixlərində bölgədə lokal xarakterli antiterror tədbirləri həyata keçirilib.

## TÜRKİYƏ XİN: "AZƏRBAYCAN ÖZ SUVEREN ƏRAZİSİNDƏ ZƏRURİ HESAB ETDİYİ TƏDBİRLƏRİ GÖRMƏLİ OLDU"

"Azərbaycan İkinci Qarabağ müharibəsinin başa çatmasından keçən üç ilə yaxın müddətdə bölgədəki vəziyyətlə bağlı daim bəyan etdiyi problemlərin həll olunmaması nəticəsində zəruri hesab etdiyi tədbirləri öz suveren ərazisində görməli oldu".

Bu barədə Türkiyə XİN-nin bəyanatında deyilir.

Azərbaycanın Qarabağ bölgəsində qeyri-qanuni erməni silahlı birləşmələrinin Azərbaycan ordusunun üzvlərinə və təhlükəsizlik qüvvələrinə qarşı uzun müddətdir davam edən silahlı hücumlarına və təxribatlarına cavab olaraq Azərbaycan ordusu tərəfindən müstəsna olaraq hərbi elementləri hədəf alan antiterror tədbirləri başladılıb: *"Hesab edirik ki, Azərbaycan və Ermənistan arasında indiyədək ciddi şəkildə həyata keçirilən hərtərəfli danışıqlar prosesinin nəticəyönümlü şəkildə davam etdirilməsinin təmin edilməsi regionda sülhün, təhlükəsizliyin, firavanlığın və daimi sabitliyin bərqərar olmasının yeganə yoludur."*

## PREZİDENT İLHAM ƏLİYEV PREZİDENT RƏCƏB TAYYİB ƏRDOĞANA TƏŞƏKKÜR EDİB

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təşəkkürünü bildirib. Dövlət başçısı bu barədə sosial şəbəkə hesablarında paylaşım edib.

Paylaşımda deyilir: *"Əziz qardaşım, BMT Baş Assambleyasında çıxışınız zamanı Azərbaycana verdiyiniz dəstəyə görə təşəkkür edirəm. Hər zaman olduğu kimi, bu gün də qardaş Türkiyə Azərbaycanın yanındadır və haqq işimizdə bizə dəstək verir. Azərbaycan və Türkiyə xoş günlərdə də, kədərli anlarda da daim bir yerdədirlər. Beynəlxalq təşkilatlarda həmişə bir-birimizin haqlı mövqeyini müdafiə edirik. Şuşa Bəyannaməsi ilə münasibətlərimiz strateji müttəfiqlik səviyyəsinə yüksəlib. Siz də, mən də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qardaşlığımızın rəmzi olan "Bir millət, iki dövlət" kəlamını daim yada salaraq Azərbaycan və Türkiyə arasında olan sarsılmaz birliyi yeni zirvələrə daşıyırıq".*

## "AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜ QORUMASI ÜÇÜN ATDIĞI ADDIMLARI DƏSTƏKLƏYİRİK"

"Bir millət, iki dövlət" şüarı ilə hərəkət etdiyimiz Azərbaycanın ərazi bütövlüyünü qoruması üçün atdığı addımları dəstəkləyirik". Bu fikri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan BMT Baş Assambleyasındakı çıxışında deyib.

"Ermənistanın başda Zəngəzur dəhlizinin açılması olmaqla verdiyi sözləri yerinə yetirməsini gözləyirik. Artıq hamının qəbul etdiyi kimi, Qarabağ Azərbaycan torpağıdır. Bundan başda bir statusun zorla qəbul etdirilməsi əsla qəbul olunmayacaq", - deyə Türkiyə Prezidenti bildirib.



## "AZƏRBAYCAN HAZIRKI TƏDBİRİ ÖZ ƏRAZİSİNDƏ HƏYATA KEÇİRDİ"

"Qarabağdakı vəziyyət üzrə təhlükəsizliklə bağlı Rusiyanın öhdəliklərini yerinə yetirməməsinə dair Ermənistanın bizə qarşı iddiaları əsassızdır. İrəvan tərəfindən Qarabağın Azərbaycan ərazisi kimi tanınmasından sonra Rusiya buna müdaxilə edə bilməz".

Bu barədə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib. "Ermənistanın baş naziri Nikol Paşinyan 1991-ci il vəziyyətinə görə Azərbaycanın sərhədlərini tanıdıqlarını bəyan etdi. Bu o deməkdir ki, Ermənistan tərəfi Qarabağı Azərbaycan ərazisinin bir hissəsi kimi tanıdı. Ona görə də biz Ermənistanın təhlükəsizliklə bağlı öhdəliklərin yerinə yetirilməməsinə dair ittihamlarını qəbul etmirik", - deyə Dmitri Peskov vurğulayıb.

O qeyd edib ki, Moskva İrəvanın Qarabağla bağlı qınaqlarını qəbul etmir.

Azərbaycan və Ermənistan Rusiyanın tərəfdaşları olaraq qalırlar.

O, həmçinin, bildirib ki, Rusiya Federasiyası ilə Ermənistan arasında təmaslar davam edir. "İrəvan Rusiya üçün müttəfiq və tərəfdaş olub və tərəfdaş olaraq da qalır. Biz Azərbaycanla da əlaqələrimizi davam etdiririk. Azərbaycan həm də bizim çox vacib tərəfdaşımızdır", - deyə Kremlin sözçüsü vurğulayıb.

## "AZƏRBAYCANIN QARABAĞDA YENİ ANTİTERROR TƏDBİRLƏRİNƏ BAŞLAMASI TAM QANUNAUYĞUNDUR"

"Azərbaycanın Qarabağda yeni antiterror tədbirinə başlamasına həm Ermənistan, həm də Rusiya sülhməramlılarının məsuliyyətsiz hərəkətləri səbəb olub".

Bu sözləri gürcü politoloq Tengiz Txilava Azərbaycanın keçirdiyi lokal antiterror tədbirlərlə bağlı AZƏRTAC-a müsahibəsində söyləyib.

Politoloq deyib ki, Azərbaycanın Qarabağda yeni antiterror tədbirlərinə başlaması tam qanunauyğundur və başadüşüləndir. İlk növbədə ona görə ki, 2020-ci ilin noyabrında Qarabağda gedən 44 günlük müharibənin sonunda sülhün imzalanması zamanı Ermənistan "Artsax ordusu" adlandırılan qüvvələrinin tərk-silahı və ya Ermənistana çıxarılmasına dair öhdəlik götürdü. Lakin Ermənistan bu öhdəliyi yerinə yetirmədi. Heç kimə sirr deyil ki, çox vaxt bu "ordu"nun rolunu, sadəcə olaraq, Ermənistan silahlı qüvvələri yerinə yetirirdi. Regionda sülhməramlılıq payını üzərinə götürən Rusiya bu funksiyanı yerinə yetirmədi, erməni tərəfinə hər cür kömək etdi. Bu da regionda sabitliyin yenidən pozulmasına səbəb oldu. Ona görə də deyə bilərik ki, Azərbaycanın Qarabağda antiterror tədbirlər keçirməsi onun suveren hüququdur. Onun sözlərinə görə, Ermənistan hakimiyyətinin hərəkətləri ona görə daha məsuliyyətsizdir ki, ölkənin baş naziri N.Paşinyan dəfələrlə bəyan edib ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımağa və deməli, Qarabağı da onun bir hissəsi kimi tanımağa hazırdır.

Fransa da burada öz məsuliyyətini daşımalıdır, onun rəsmiləri, o cümlədən prezident də dəfələrlə məsuliyyətsiz bəyanatlar verib.

## "HAQLI MÜBARİZƏSİNDƏ AZƏRBAYCANIN YANINDAYIQ"

"Tarix boyu paylaşdığımız tale birliyini bu gün də davam etdiririk".

Bu barədə Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Səlçuk Bayraktar "X" sosial şəbəkəsindəki hesabında yazıb.

*"Biz fəxrlə Can Azərbaycanın haqlı Qarabağ mübarizəsində yanındayıq"*, - deyə o əlavə edib.

# PREZİDENT İLHAM ƏLİYEV BP ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİNİ QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də BP şirkətinin İdarə Heyətinin sədri Helqe Landı qəbul edib. Görüşdə BP şirkətinin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel və 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasında iştirak edən şirkətin sabiq baş icraçı direktoru Lord Con Filip Braun iştirak ediblər.

# "Mərkəzi Asiyadan olan şirkətlərin Ələt Azad İqtisadi Zonasına marağını görürük"

Prezident İlham Əliyev Tacikistanda keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə çıxışı zamanı bu regionun (Mərkəzi Asiya – red.) ölkələri ilə Azərbaycanın əməkdaşlığı barədə danışıb.

İkitərəfli əməkdaşlığın mühüm meyarlarından birinin qarşılıqlı ticarətin və sərmayələrin artımı olduğunu söyləyən dövlətimizin başçısı həmin iki istiqamət üzrə göstəricilərin davamlı artdığını söyləyib.

**"Keçən il Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə ticarət dövriyyəsi 3 dəfədən çox, bu ilin 7 ayı ərzində isə daha 50 faiz artıb. Birgə sərmayə fondları yaradılıb, növbəti 3 il üzrə 1 milyard dollardan artıq qarşılıqlı sərmayələrin həcmi razılaşdırılıb. Biz artıq sənaye əməkdaşlığı, maşınqayırma, avtomobil sənayesi, gəmiqayırma, kənd təsərrüfatı, xüsusən də pambıqçılıq, ipəkçilik, bağçılıq və heyvandarlıq sahələrində çoxsaylı layihələri həyata keçiririk. Mehmanxana işi və turizm sahəsindəki sərmayə layihələri ilk icra mərhələsindədir. Biz Mərkəzi Asiyadan olan şirkətlərin bu yaxınlarda Azərbaycanda yaradılmış Ələt Azad İqtisadi Zonasına marağını görürük"**, - deyə Azərbaycan Prezidenti qeyd edib.

# Rəsmi Bakıdan Fransa XİN-ə CAVAB

"Azərbaycan Respublikasının Qarabağ bölgəsində qanunsuz yerləşdirilmiş Ermənistan silahlı qüvvələrinin növbəti təxribatlarına cavab olaraq tərəfimizdən görülən tədbirlər barədə Fransa Respublikasının Avropa və Xarici işlər Nazirliyinin bəyanatını qətiyyətlə rədd edir və pisləyirik".



Bu fikirlər Azərbaycan Xarici işlər Nazirliyinin Fransa Avropa və Xarici İşlər Nazirliyinin Qarabağ bölgəsində qeyri-qanuni yerləşmiş erməni silahlı qüvvələrinin təxribatlarına qarşı cavab tədbirləri barədə qəbulolunmaz bəyanatına dair şərhində yer alıb.

Azərbaycan ərazilərinin işğalı faktına və bu faktın Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin Azərbaycan ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsi ilə tanınmasına baxmayaraq, Fransanın 1997-2020-ci illərdə ATƏT-in Minsk qrupunda həmsədrliyi dövründə münaqişənin beynəlxalq hüquq əsasında ədalətli həllini tapmasından daha çox işğal nəticələrinin və bölgədəki status-kvonun saxlanmasına töhfə verdiyi yaxşı yadımızdadır.

Bu baxımdan, hazırkı post-münaqişə vəziyyətində belə əvvəlki siyasətindən imtina etməyən Fransanın Qarabağ bölgəsində qanunsuz yerləşdirilmiş Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq görülən tədbirlər barədə bugünkü bəyanatını işğal dövrünün qalıqlarına göstərilən dəstək kimi qiymətləndiririk.

44 günlük Vətən müharibəsi zamanı da anti-Azərbaycan mövqeyi və bəyanatları ilə seçilən Fransanın, münaqişədən sonrakı vəziyyətdə bölgədə sülh quruculuğu səylərindən kənarda dayanaraq, prosesə yalnız mənfi təsir göstərən açıqlamalar verməsi, separatizmi dəstəkləyən mövqe göstərməsi ilə özünü regiondan daha da təcrid etməsi yaxşı məlumdur.

Fransanın bugünkü mövqeyi bu ölkənin müstəmləkə bölgələrində bu gün üzləşdiyi mövcud vəziyyətdən dərs almadığını və bu mövzuda əvvəlki davranışlarını və siyasətlərini davam etdirdiyini göstərir.

Fransa rəsmiləri, Milli Assambleyası və Senatı Azərbaycana qarşı bəyanatlar verilməsi və sənədlərin qəbulunda Ermənistandan daha fəal çıxış edirlər.

Fransanın İslamofob və anti-Azərbaycan siyasəti və onun daxili işlərimizə qəbuledilməz müdaxiləsi göstərir ki, Fransa regiondan nə qədər uzaq olsa, region üçün bir o qədər yaxşı olar.

# "AZƏRBAYCANI VƏ MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİNİ ÇOXƏSRLİK QARDAŞLIQ MÜNASİBƏTLƏRİ BAĞLAYIR"



"Azərbaycanı və Mərkəzi Asiya ölkələrini xalqlarımızın çoxəsrlik qardaşlıq münasibətləri bağlayır. Ortaq mədəni köklər dövlətlərarası əlaqələrin möhkəm bünövrəsini təşkil edir".

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Tacikistanda keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə çıxışı zamanı deyib.

Dövlətimizin başçısı bildirib: "Otuz ildən artıqdır ki, biz müstəqil dövlətlər kimi həm ikitərəfli, həm çoxtərəfli formatda fəal şəkildə qarşılıqlı fəaliyyət aparırıq, bir-birimizin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik, iqtisadi əlaqələri fəal şəkildə inkişaf etdiririk".

Prezident İlham Əliyev, həmçinin vurğulayıb ki, Mərkəzi Asiya və Azərbaycan artan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur.

# Azərbaycan Mərkəzi Asiya ölkələri üçün Türkiyə və Avropa bazarları istiqamətində etibarlı tranzit ölkəsidir

"Azərbaycan Mərkəzi Asiya ölkələri üçün Türkiyə və Avropa bazarları istiqamətində etibarlı tranzit ölkəsidir".

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Tacikistanda keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə çıxışı zamanı bildirib.

Əks istiqamətdə də tranzitin əhəmiyyətinin az olmadığını diqqətə çatdıran dövlətimizin başçısı qeyd edib: **"Mərkəzi Asiyadakı qardaşlarımız bilirlər ki, Azərbaycanın bütün nəqliyyat-logistika infrastrukturu onlar üçün açıqdır".**

# Bakı-Tbilisi-Qars dəmir yolu tərəfimizdən müasirləşdirilir

"Şərq-Qərb marşrutu ilə yükdaşımalarına artan tələbatı təmin etmək məqsədilə Bakı-Tbilisi-Qars dəmir yolu tərəfimizdən müasirləşdirilir".

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Tacikistanda keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə çıxışı zamanı söyləyib.

Gələn il həmin yol ilə daşınan yüklərin həcminin 1 milyon tondan 5 milyon tona qədər artırılacağını qeyd edən dövlətimizin başçısı bildirib ki, buna paralel olaraq, Bakı Ticarət Limanının imkanları bugünkü 15 milyon tondan 25 milyon tona qədər artırılır.

# Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası üzrə görülən işlər müzakirə edilib




2022-2026-cı illərdə ölkəmizin sosial-iqtisadi inkişaf Strategiyasında nəzərdə tutulan dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə hədəfə nail olunması məqsədilə yaradılmış "İqtisadi artım üzrə işçi qrupu"nun ilk iclası keçirilib.

İqtisadiyyat Nazirliyindən bildirilib ki, işçi qrupun sədri, iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov ölkəmizin sosial-iqtisadi inkişaf Strategiyası üzrə tədbirlərin reallaşdırılmasının dayanıqlı və rəqabətqabiliyyətli iqtisadi inkişafa nail olunmasında rolunu vurğulayıb. Nazir müavini işçi qrupunun fəaliyyət istiqamətləri üzrə tədbirlərin icra vəziyyətini, İqtisadiyyat Nazirliyinin əsas icraçısı olduğu tədbirlər üzrə 2023-cü ilin ilk 6 ayı ərzində görülmüş işləri diqqətə çatdırıb. Qeyd olunub ki, strategiya üzrə işlərin effektivliyinin təmin edilməsi məqsədilə monitorinq və qiymətləndirmə portalı yaradılıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorunun müavini Rəşad Hüseynov strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinq və qiymətləndirilməsinə dair 2023-cü ilin birinci yarımilliyi üzrə hazırlanmış hesabatları təqdim edib.

İclasda effektivliyin daha da artırılması istiqamətində işçi qrupunun üzvləri və aidiyyəti dövlət qurumlarının nümayəndələri ilə müzakirələr aparılıb, növbəti addımlar müəyyənləşdirilib.

# 20 sentyabr "Neftçilər Günü"dür. Bayramınız mübarək, əziz neftçilər!



**2001-ci il avqustun 16-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Neftçilər Günü" peşə bayramının təsis edilməsi haqqında" sərəncam imzaladı. Sərəncamda deyilirdi:**

"Azərbaycanın neft və qaz sənayesinin inkişafında Azərbaycan xalqının dəyərli insanları – böyük alimləri, mühəndisləri, geoloqları, neftçiləri və başqa mütəxəssisləri zəngin neft və qaz sərvətlərinin vətən, xalq naminə istifadə edilməsi üçün böyük işlər görmüş, fədakarcasına çalışmış və xalqımızın tarixinə şanlı səhifələr yazmışlar. Azərbaycanın tarixində, onun iqtisadiyyatının inkişafında, xüsusilə, müstəqilliyinin möhkəmləndirilməsində neft sənayesinin əhəmiyyətini nəzərə alaraq və neftçilərin əməyini yüksək qiymətləndirərək qərara alıram: hər il sentyabrın 20-si Azərbaycan Respublikasında "Neftçilər günü" peşə bayramı kimi qeyd olunsun".

Bəli, dünya neft sənayesinin inkişafına Azərbaycan neftçiləri böyük töhfələr vermiş, əsl fədakarlıq nümunələri göstərmişlər. Neftçilər hər zaman - keçmişdə də, indi də ən vacib, hörmətli peşə sahibləridir. Onlara qayğı Azərbaycanın gələcəyinə qayğıdır. Onlara diqqət əməksevər xalqımıza diqqətdir. Qeyd etməliyik ki, bu münasibət uzun müddət olub və indi də vardır. Qəhrəman neftçiləri dalğalı, fırtınalı Xəzərdə işləməyə ilk növbədə peşəyə vurğunluq, Vətənin iqtisadi qüdrətinin artırılması arzusu cəlb etmişdir. Neftçilər çox saf, mərd və dostluğa sadiq insanlardır. Bu keyfiyyətləri həmişə qoruyub saxlayan, gələcəyə nikbin baxan neftçilər ordusu Azərbaycan iqtisadiyyatının möhkəm və əzəmətli sütunlarındandır.

Biz də bu əziz bayram günündə Azərbaycanın neft salnaməsinə öz adlarını qızıl hərflərlə yazmış görkəmli neftçi alimlərimizi bir daha yad etmək, gələcək nəsillərin yaddaşlarına həkk etdirmək istədik.

*"Mən həmişə neftçilərin əməyini, onların cəsarətini qiymətləndirirəm. Onlar ağır şəraitdə çalışırlar, ölkəmizin inkişafı üçün işləyirlər. Çalışırlar ki, öz əməyi ilə ölkəmizi gücləndirsinlər. Bu gün bizim neftimiz xalqımıza xidmət edir, dövlətimizi gücləndirir. Biz neftdən gələn gəliri ölkəmizin inkişafına yönəltdik, insan kapitalına, infrastruktur layihələrinə qoyduq və bu gün neft Azərbaycan xalqının inkişafını təmin edir. Neft bizim təbii sərvətimizdir, xalqımızın böyük sərvətidir, biz də ondan istifadə edib ölkəmizi inkişaf etdiririk".*

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham Əliyev**



*"Müstəqil dövlət olaraq bu işləri başlayarkən Azərbaycan neftçilərinin bir neçə nəslinin əməyi nəticəsində Azərbaycanın ərazisində və Xəzər dənizinin Azərbaycan sektorunda kəşf edilmiş zəngin neft və qaz yataqlarının mövcud olması bizim bugünkü və gələcək işlərimizin əsasını təşkil edir. Keçmişdə yaşamış və bu gün bizim sıralarımızda olan Azərbaycan neftçiləri, alimləri, geoloqları öz xalqının təbii sərvətlərinin aşkar edilməsi üçün dəyərli işlər görmüş, böyük neft və qaz yataqları açmışlar və bunlar da indi müstəqil Azərbaycan dövləti üçün böyük proqramlar tərtib etməyə əsas yaradır. Bu gün, bu əlamətdar bayram günü Azərbaycan neftçilərinin bütün nəsillərini minnətdarlıq hissi ilə xatırlayır və bildirmək istəyirəm ki, Azərbaycan xalqı onların gördüyü işləri heç vaxt unutmayacaqdır".*

*Ümummilli Lider Heydər Əliyev*

## Fərman Qurban oğlu Salmanov (1931-2007)



**1961-ci ildə Qərbi Sibirin Tümen vilayətinin nəhəng neft və qaz yataqlarını kəşf etmiş məşhur azərbaycanlı sovet geoloqu, Sosialist Əməyi Qəhrəmanı.** Fərman Salmanov Rusiya Federasiyasının əməkdar geoloqu, geologiya-minerologiya elmləri doktoru, professor, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, Tümen vilayətinin neft-qaz kəşfiyyatı idarəsi "Qlavtumengeologiya"nın rəhbəri (1978-1987), SSRİ Geologiya nazirinin birinci müavini (1987-1991), Xanti-Mansi və Yamalo-Nenets Muxtar dairələrinin, Surgut şəhəri və Texas ştatının fəxri vətəndaşı olmuşdur. O, Lenin ordeni (1970), Qırmızı Əmək Bayrağı ordeni (1971, 1976), "Oktyabr inqilabı" ordeni (1983), Lenin mükafatı (1970), İvan Qubkin mükafatı (1980) ilə təltif olunmuşdur.

Fərman Salmanov ömrünün 50 ilini Sovet İttifaqı və Rusiya Federasiyasının neft-qaz sənayesinə həsr etmiş, 100-dən artıq nəhəng neft-qaz yatağını kəşf və ya onların kəşfində iştirak etmişdir. Belə nəhəng yataqlardan Mamontov, Megiyon, Pravdinsk, Üst-Balıq, Surgut, Urengoy, Yamburq və s. misal göstərmək olar. 1978-ci ildən 1987-ci ilə qədər Salmanov Tümen vilayətinin neft-qaz kəşfiyyatı idarəsi "Qlavtumengeologiyaya" rəhbərlik etmişdir. 1987-1991-ci illərdə SSRİ Geologiya nazirinin birinci müavini işləmişdir.

Fərman Salmanov, eyni zamanda geologiya-minerologiya elmləri doktoru, Rusiya Elmlər Akademiyasının müxbir üzvü olmuşdur. Görkəmli geoloq 160-dan artıq monoqrafiya və elmi əsərlərin müəllifidir. O Xanti-Mansi və Yamalo-Nenets Muxtar dairələrinin, Surgut şəhəri və Texas ştatının fəxri vətəndaşı seçilmişdir.

2019-cu ilin may ayından etibarən Rusiyanın Surqut hava limanına görkəmli azərbaycanlı geoloq Fərman Salmanovun adı verilib.

## Ənvər Nəzər oğlu Əlixanov (1917-1992)



Ə.Əlixanov gənc texnik-geoloq kimi Zığda neft mədənlərində əmək fəaliyyətinə başlamış, 1936-1941-ci illərdə Azərbaycan Sənaye İnstitutunun (indiki ADNSU) kəşfiyyat-geologiya fakültəsinin tələbəsi olmuş, 1941-ci ilin mayında institutu bitirib, mədən mühəndis-geoloqu ixtisasını almış, Kaqanoviçneft trestinin 3-cü mədənində geoloq işləmiş, daha sonra orduya çağırılaraq 1941-1942-ci illərdə Böyük Vətən müharibəsində iştirak etmişdir.

1961-ci ildə bir qrup Azərbaycan neftçisi, o cümlədən Ə.Əlixanov Azərbaycanda dənizdə neft yataqları kompleksinin, əsasən Xəzərin dərinlik akvatoriyasının kəşf olunması və istismara verilməsi sahəsində əldə etdikləri nailiyyətlər üçün Lenin mükafatına layiq görülmüşdür.

Əlixanov Ə.N. 100-ə yaxın elmi işin, "Xəzər dənizinin neft-qazlılığı" və "Xəzər dənizinin geologiyası" adlı 2 monoqrafiyanın müəllifidir. O, iki dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni və medallarla mükafatlandırılmışdır.

## Sabit Orucov (1912-1981)



Sabit Atababa oğlu Orucov əmək fəaliyyətinə Ermənistandakı Şirpazlı kəndində müəllim kimi başlamışdır.

1946-1947-ci illərdə SSRİ Neft Sənayesi Nazirliyində şöbə müdiri, 1947-1949-cu illərdə Krasnodarneft birliyində rəisin birinci müavini-baş mühəndis, 1949-1953 və 1955-1957-ci illərdə SSRİ Neft Sənayesi Nazirinin müavini, 1957-1959-cu illərdə Azərbaycan Xalq Təsərrüfatı Şurasının sədri, Nazirlər Soveti sədrinin müavini, 1959-1962-ci illərdə Azərbaycan Nazirlər Sovetinin SSRİ Nazirlər Sovetindəki nümayəndəsi, 1962-1965-ci illərdə SSRİ Dövlət Plan Komitəsində neft və qaz sənayesi məsələlərilə məşğul olmuş, 1965-1972-ci illərdə SSRİ Neft sənayesi nazirinin birinci müavini, 1972-1981-ci illərdə SSRİ Qaz sənayesi naziri olmuşdur. Sabit Orucov Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü (1967), Sosialist Əməyi Qəhrəmanı (1980), Lenin (1970) və Stalin mükafatları laureatı (1950, 1951) idi. O, eləcə də texnika elmləri doktoru, Azərbaycan SSR əməkdar elm xadimi fəxri adlarına layiq görülmüşdür.

## Fuad İbrahim oğlu Səmədov (1926-1969)



Fuad Səmədov 1943-cü ildə onuncu sinfi əla qiymətlərlə başa vuraraq, Azərbaycan Sənaye İnstitutunun (indiki ADNA) geoloji-kəşfiyyat fakültəsinə imtahansız qəbul olunur. O, 1944-cü ildə həmin dövr üçün böyük və şərəfli hesab edilən Stalin təqaüdü almağa layiq görülmüşdü. 1960-cı ildə F.İ.Səmədov Azərbaycan E.A. Dərin Neft və Qaz Yataqlarının Problemləri İnstitutunda direktor müavini, 1961-1963-cü illərdə Başdənizneft idarəsində baş geoloq vəzifələrində işləmişdir.

Görkəmli ziyalı, əfsanəvi Neft Daşlarının ilk sakinlərindən biri, gözəl insan Fuad Səmədovun şərəfli adı neft elminin və neft sənayesinin tarixinə qızıl hərflərlə əbədi olaraq yazılmışdır. Ümumiyyətlə, Fuad Səmədov 100-dən artıq məqalənin və 4 monoqrafiyanın müəllifidir. Fuad Səmədovun neft sənayesinin inkişafındakı səmərəli fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, "Əməkdar mühəndis" kimi yüksək və şərəfli ada layiq görülmüşdür. 1959-cu ildə "Qırmızı Əmək Bayrağı", 1966-cı ildə isə Lenin ordeni ilə təltif edilmişdir. 1961-ci ilin əvvəlində Fuad Səmədov bir qrup mütəxəssislə birlikdə Azərbaycan dəniz yataqlarının kompleks mənimsənilməsinə görə Sovet məkanında o vaxtın ən böyük və şərəfli dövlət mükafatı sayılan Lenin mükafatına layiq görülmüşdür.

## Əliyev Musa Mirzə oğlu (1908-1985)



Orta məktəbi əla qiymətlərlə bitirərək, 1926-cı ildə Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur. 1931-ci ildə "Geoloji-kəşfiyyat" fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, aspiranturaya qəbul olunmuş, daha sonra assistent vəzifəsinə təyin edilmiş və 28 yaşında namizədlik dissertasiyasını müdafiə etmişdir.

1941-1942-ci illərdə Moskva Neft İnstitutunun "Paleontologiya və tarixi geologiya" kafedrasının dosenti, SSRİ Xalq Neft Sənayesi Komissarlığının tədris müəssisələri Baş idarəsinin rəisi vəzifəsində işləmiş, 1941-1945-ci müharibə illərində cəbhənin neft məhsullarına olan tələbatını ödəmək məqsədilə Cənubi Qafqaz respublikalarında mühəndis-texniki kadrların hazırlanmasına cavabdeh olmuş və uğurlu fəaliyyətinə görə Lenin ordeni ilə təltif edilmişdir.

Musa Əliyev 1950-ci ildə Azərbaycan SSR EA-nın həqiqi üzvü seçilmiş, 1957-ci ildə geologiya-mineralogiya elmləri doktoru alimlik dərəcəsini və professor elmi adını almışdır. 1950-1958-ci illərdə o, Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti olmuş, onun fövqəladə təşkilatçılıq fəaliyyəti nəticəsində orada fizika, riyaziyyat, kimya, astronomiya,
iqtisadiyyat və s. elm sahələrinin inkişafına güclü təkan verilmişdir. Qısa müddətdə onun təşəbbüsü ilə onlarla elmlər doktoru və namizədi hazırlanmış, 200-ə qədər doktorant və aspirant keçmiş İttifaqın nüfuzlu elm və tədris mərkəzlərinə göndərilmişdir.

Akademiya şəhərciyinin layihəsinin başa çatdırılması, tikintiyə icazə alınması, Moskvada SSRİ hökumətində maliyyə vəsaitlərinin ayrılması işlərində Musa Əliyevin əvəzsiz xidmətləri olmuşdur. Onun müəllifliyi və redaktorluğu ilə 7 cildlik Azərbaycan geologiyası toplusu nəşr olunmuş, Şamaxı rəsədxanası, Fizika İnstitutunda "Astronomiya ekspedisiyası, astrofizika" şöbəsi yaradılmışdır.

1958-ci ildən başlayaraq Musa Əliyev Moskva şəhərinə dəvət olunmuş və SSRİ Elmlər Akademiyasının və SSRİ Neft Sənayesi Nazirliyinin nəzdində fəaliyyət göstərən Yanar Qazıntı Yataqlarının Geologiyası İnstitutunun elmi işlər üzrə direktor müavini təyin olunmuşdur. Tez bir zamanda o, neftli-qazlı regionların biostratiqrafiyası laboratoriyasını təşkil etmiş, apardığı tədqiqatların coğrafiyası Qafqazı, Türkmənistanı, Qazaxıstanı, Özbəkistanı və Qərbi Sibiri əhatə etmişdir. 1967-ci ildə o, SSRİ Neftçıxarma Sənayesi Nazirliyi tərəfinlən Əlcəzairə ezam olunmuş və bu ölkə ilə bağlanmış böyük neft müqaviləsinə 1971-ci ilə kimi rəhbərlik edərək zəngin neft-qaz yataqlarının kəşfinə nail olmuşdur.

1971-ci ildən ömrünün sonuna kimi Musa Əliyev Moskvada sözü gedən institutda keçmiş vəzifəsində çalışmışdır. O, 210 elmi əsərin, 15 monoqrafiyanın müəllifi, çoxsaylı elmlər doktorları və namizədlərinin rəhbəri olmuşdur.

## Mirkazım Mirəhəd oğlu Məmmədov (1911-1996)



Neftçi-geoloq, Lenin mükafatı laureatı Azərbaycanın qocaman neftçi-geoloqu, əməkdar mühəndis, Lenin mükafatı laureatı, fəxri neftçi, geologiya-minerologiya elmləri namizədi Mirkazım Mirəhəd oğlu Məmmədov 1936-cı ildə Azərbaycan Sənaye İnstitutunu bitirərək, neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı üzrə mühəndis-geoloq ixtisasına yiyələnmişdir.

M.Məmmədov ömrünün 60 ildən çoxunu neft sənayesində çalışmışdır. Bu müddət ərzində Azərbaycanın quru sahələrində və Xəzər dənizi akvatoriyasında zəngin neft və qaz yataqlarının (Neft Daşları, Bahar, Qumadası, Zirə, Qaradağ, Qarabağlı və başqaları) açılmasında, işlənilməsi və mənimsənilməsində mühüm rolu olmuş və böyük əmək tələb edən yaradıcılıqla həmin işlərə rəhbərlik etmişdir.

O, Lenin mükafatı laureatı, bir sıra orden və medallar ilə təltif olunmuşdur. Neft yataqlarında geoloji işlərə və işlənmənin texnologiyasına rəhbərlik etməklə yanaşı, o, bu sahələrdə geniş elmi-tədqiqat işləri aparmış və yüksəkixtisaslı kadrların hazırlanmasına fəal surətdə rəhbərlik etmişdir. 1953-cü ildən başlayaraq Azərbaycan Sənaye İnstitutunda pedaqoji fəaliyyət göstərmiş, 1964-1974-cü illərdə həmin institutun geoloji-kəşfiyyat fakültəsində Dövlət İmtahan Komissiyasının sədri olmuşdur.

## Azərbaycanın startap ekosisteminin uğurları Qlobal Sahibkarlar Konqresində




Avstraliyanın Melburn şəhərində Qlobal Sahibkarlıq Şəbəkəsi tərəfindən Qlobal Sahibkarlar Konqresi ("GEC2023") keçirilir. Tədbirdə dünyanın 30 ölkəsindən dövlət rəsmiləri, iş adamları və startaplar iştirak edirlər. Konqresdə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) nümayəndələri də iştirak edirlər.

KOBİA-dan bildirilib ki, "GEC2023" çərçivəsində təşkil olunmuş "Startaplar üzrə nazirlər görüşü" tədbirində KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov Azərbaycanın innovasiya ekosistemi və ölkəmizdə startapların dəstəklənməsi təcrübəsi barədə məlumat verib. Qeyd edilib ki, Azərbaycanda startap ekosisteminin dəstəklənməsi və inkişafı sahəsində bir çox uğurlu islahatlar aparılır, o cümlədən qanunvericilik təkmilləşdirilir, startaplar üçün müxtəlif təşviq və güzəştlər tətbiq olunur, dövlət və özəl sektor tərəfindən dəstəklənən 10-a yaxın inkubator və akselerasiya mərkəzi fəaliyyət göstərir. Startaplara onlara vergi güzəştlərini nəzərdə tutan "Startap" şəhadətnaməsi verilir. İndiyədək KOBİA tərəfindən mikro və kiçik sahibkarlara 100-dən çox belə sənəd təqdim olunub. "Bakı KOB evi"ndə Startap İnkişafı Mərkəzi fəaliyyət göstərir, innovativ layihələrə qrant dəstəyi verilir.

Orxan Məmmədov vurğulayıb ki, Azərbaycan əraziləri 30 illik erməni işğalından azad edildikdən sonra bu ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqinə başlanılıb. Azərbaycan hökuməti tərəfindən Qarabağ bölgəsində innovativ və rəqəmsal cəmiyyətin, iqtisadiyyatın yaradılması üçün bərpa və yenidənqurma prosesində ən müasir texnologiyalar və həllərdən istifadə edilir.

## KOBİA Avstraliya ilə KOB sahəsində təcrübəyə dair fikir mübadiləsi aparıb

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) nümayəndələri Qlobal Sahibkarlıq Şəbəkəsi tərəfindən keçirilən Startap Ölkələri Sammitində iştirak etmək məqsədilə Avstraliyada işgüzar səfərdədir. Səfər çərçivəsində KOBİA nümayəndələri Avstraliyanın sahibkarlıqla əlaqəli qurumlarında bir sıra görüşlər də keçirəcəklər.

KOBİA-dan bildirilib ki, səfər çərçivəsində Melburn şəhərində agentliyin İdarə Heyətinin sədri Orxan Məmmədov Avstraliyanın Viktoriya əyalətinin kiçik biznes, gənclər və veteranlar naziri Natali Süleyman ilə görüşüb. Görüşdə kiçik və orta sahibkarlıq sahəsində hər iki ölkənin təcrübəsinə, ticarət və qarşılıqlı investisiyaların artırılması sahəsində mümkün əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.

## Qaradağ Sənaye Parkının rezidenti beynəlxalq sərgidə iştirak edib



İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Qaradağ Sənaye Parkının rezidenti "Bakı Gəmiqayırma Zavodu" MMC Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən Beynəlxalq "NEVA 2023" sərgisində öz stendi ilə təmsil olunur.

İZİA-dan bildirilib ki, sərgi iştirakçılarına Bakı Gəmiqayırma Zavodunun ümumi fəaliyyəti, həyata keçirilmiş layihələr barədə məlumat verilib, eyni zamanda sərgi çərçivəsində müxtəlif işgüzar görüşlər təşkil edilib.

Görüşlərdə Bakı Gəmiqayırma Zavodunun gəmiçilik sahəsindəki qabaqcıl təcrübəsi, zavodun imkanlarının genişləndirilməsi, gələcəkdə həyata keçiriləcək layihələr müzakirə olunub.

## Payız-qış mövsümünə hazırlıq ilə bağlı geniş istehsalat müşavirəsi keçirilib



"Azəristiliktəchizat" ASC-nin istilik təsərrüfatlarının 2023-2024-cü illər payız-qış mövsümünə hazırlıq ilə bağlı geniş istehsalat müşavirəsi keçirilib.

ASC-dən bildirilib ki, Bakı şəhəri və respublikanın regionlarında fəaliyyət göstərən istilik təsərrüfatlarının rəhbərlərinin iştirakı ilə 2023-2024-cü illər payız-qış mövsümünə hazırlıqla bağlı geniş istehsalat müşavirəsi keçirilib. Müşavirədə mövsümə hazırlıqla bağlı təsdiq edilmiş Tədbirlər Planının icra vəziyyətinə dair istilik təsərrüfatlarının rəhbərlərinin hesabatları dinlənilib və hər bir sahə üzrə işlərin gedişatı ətraflı müzakirə edilib.

Müşavirədə payız-qış mövsümünə hazırlıq obyektlərinin mövsümi hazırlığını qiymətləndirən "Mövsümi hazırlıq komissiyası"nın üzvləri çıxış edərək qazanxana və istilik şəbəkələrinin istismara hazırlığı haqqında ətraflı məlumat veriblər.

## SOCAR Rumıniyada yeni yanacaqdoldurma məntəqəsini istifadəyə verib

Bu məntəqə Rumıniyada "SOCAR" brendi altında sayca 74-cü, Konstantsa şəhərində isə ilkdir.

On altı il əvvəl Rumıniyada hüquqi şəxs kimi qeydiyyatdan keçən SOCAR-ın törəmə şirkəti SOCAR Petroleum S.A. artıq 74 yanacaqdoldurma məntəqəsi şəbəkəsinə malikdir. Qısa müddət ərzində SOCAR Rumıniyada illik dövriyyəsi 500 milyon avrodan çox olan regional treydərə çevrilib, ölkənin enerji bazarına 70 milyon avro həcmində sərmayə yatırıb. Həmçinin dövlət büdcəsinə 100 milyon avrodan çox vergi ödəyib. Özündə 750-dən çox əməkdaşı birləşdirir.

Qeyd edək ki, hazırda SOCAR Petroleum S.A. Rumıniyanın 28 regionunda "SOCAR" brendli yanacaqdoldurma məntəqəsi şəbəkəsinə malikdir.

## Gömrük sahəsində xarici ticarət iştirakçılarının təklif və rəyləri dinlənilib



Tovuz Gömrük İdarəsində xarici ticarət iştirakçıları ilə növbəti görüş olub.

Dövlət Gömrük Komitəsindən (DGK) AZƏRTAC-a bildirilib ki, görüş gömrük-biznes, gömrük-vətəndaş münasibətlərində qarşılıqlı etimadın gücləndirilməsi, sahibkarların təklif və rəylərinin dinlənilməsi məqsədilə təşkil olunub.

Tədbirdə DGK-nın son dövrlərdə apardığı təkmilləşdirilmələr, gömrük xidmətinin strateji hədəfləri barədə ətraflı məlumat verilib.

Daha sonra "Yaşıl Dəhliz" buraxılış sistemindən daim istifadə hüququ əldə etmiş sahibkarların ölkəyə idxal etdikləri yüklərlə bağlı mövcud vəziyyət təhlil edilib, həmçinin "Gömrük orqanları tərəfindən malların təsnifatının və mənşə ölkəsinin müəyyənləşdirilməsi üzrə məcburi qərarlar qəbul edilməsinə dair Metodika", "Gömrük bəyannamələrinin doldurulması qaydasının Metodikası", "Gömrük dəyərinin müəyyən edilməsinin vahid Metodikası" ilə bağlı məlumatlar da sahibkarların diqqətinə çatdırılıb.

## "Azərkosmos" "IBC 2023" beynəlxalq sərgi-konfransında təmsil olunub

"Azərkosmos" ASC sentyabrın 15-dən 18-dək Niderland Krallığının Amsterdam şəhərində keçirilən "IBC 2023" beynəlxalq sərgi-konfransında təmsil olunub.

Bu barədə Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") məlumat yayıb.

Sərgi iştirakçılarına "Azərkosmos"un fəaliyyəti, Azerspace-1 və Azersace-2 peyklərinin təqdim etdiyi xidmətlər haqqında ətraflı məlumat verilib, həmçinin bir sıra şirkətlərlə işgüzar görüşlər keçirilib.

Peyk xidmətləri, texnologiya, innovasiya və yayım sahəsi üzrə keçirilən, 170 ölkədən 40 mindən çox nümayəndənin iştirak etdiyi sərgidə yayım və texnologiya sahəsində dünyanın aparıcı brendləri və müxtəlif startaplar daxil olmaqla, ümumilikdə 1000-dən çox şirkət təmsil olunub.



## İşğaldan azad edilmiş ərazilərin rezidentləri üçün vergi hesabatları ilə bağlı güzəşt varmı?




İşğaldan azad edilmiş ərazinin rezidenti olan müəssisə bu ərazilərdə ictimai iaşə xidmətləri göstərdiyi halda mənfəət vergisi bəyannaməsini və ya digər vergi hesabatlarını təqdim etməlidirmi?

Dövlət Vergi Xidmətindən bildirilib ki, Vergi Məcəlləsinin 2023-cü il yanvarın 1-dən qüvvəyə minmiş müddəalarına əsasən, işğaldan azad edilmiş ərazinin rezidenti həmin ərazidəki fəaliyyəti ilə bağlı vergi hesabatlarını bu Məcəllədə nəzərdə tutulmuş qaydada və müddətlərdə vergi orqanına təqdim etməlidir. İşğaldan azad edilmiş ərazinin rezidentləri üçün vergi hesabatlarının təqdim olunmasında fərqli qayda müəyyən edilməyib və həmin vergiödəyiciləri vergi hesabatlarını Vergi Məcəlləsində nəzərdə tutulmuş qaydada və müddətlərdə vergi orqanına təqdim etməlidirlər.

Vergi Məcəlləsinin tələblərinə əsasən, vergi hesabatının əsas olmadan müəyyən edilən müddətdə təqdim edilməməsinə, habelə vergi güzəşti və azadolmalarını əldə edən şəxslər tərəfindən vergidən azad olunan gəlirlərin bəyan edilməməsinə və ya azaldılmasına görə maliyyə sanksiyalarının tətbiqi nəzərdə tutulur.

## AİB-dən Azərbaycanda günəş enerjisi layihəsinin icrasına dair açıqlama



Azərbaycanda Böyükşor gölündə 100 kilovatlıq üzən günəş fotoelektrik qurğusu (FPV) üzrə pilot layihə çərçivəsində quraşdırma, yekun yerləşdirmə və bərkitmə üzrə işlərin 2023-cü ilin sentyabrında tamamlanması planlaşdırılır.

Bu barədə Trend-in sorğusuna cavab olaraq layihənin icrasında iştirak edən Asiya İnkişaf Bankından (AİB) bildiriblər.

Layihədə AİB-in tərəfdaşı Azərbaycanın Energetika Nazirliyidir. AİB-dən bildiriblər ki, günəş panelləri ilə üzən adanın yığılması podratçı tərəfindən bu yaxında yekunlaşıb.

Layihənin genişləndirilməsi barədə mümkün qərara gəlincə, bankdan bildiriblər ki, bu, pilot "FPV" layihəsinin fəaliyyətindən, eləcə də, bütün maraqlı tərəflərlə gələcək müzakirələrdən asılıdır. "AİB Azərbaycan hökuməti "yaşıl" enerji sektorunun inkişafı üzrə səylərində dəstəkləməyin tərəfdarıdır. 100 kilovatlıq pilot "FPV" layihəsi AİB tərəfindən Azərbaycana göstərilən daha geniş texniki yardımın bir hissəsidir.

Pilot "FPV" layihəsinə əlavə olaraq, texniki yardım, həmçinin, texniki-iqtisadi əsaslandırmaların və biznes modellərinin hazırlanmasını əhatə edir ki, bunlar da özəl sektorun kommunal miqyaslı "FPV"nin quraşdırılmasında uzunmüddətli iştirakını təşviq edir. AİB bərpa olunan enerji üzrə bu innovativ texnologiyanı inkişaf etdirməklə Azərbaycan hökumətini aşağıkarbonlu inkişaf səylərində dəstəkləyir", - deyə bankdan bildiriblər.

# ВС Азербайджана дано соответствующее поручение в связи с капитуляцией сепаратистов в Карабахе

Достигнута договоренность о прекращении антитеррористических мероприятий локального характера. Руководством министерства обороны войскам было дано соответствующее поручение.
Как передает в среду Trend, об этом на сегодняшнем брифинге сказал глава пресс-службы минобороны Азербайджанской Республики полковник Анар Эйвазов.
По его словам, в настоящее время Вооруженные силы Азербайджана выполняют поставленные перед ними задачи.



# Стратегическая инициатива находится полностью в руках ВС Азербайджана



Стратегическая инициатива находится полностью в руках вооруженных сил Азербайджана, существенно продвинувшихся вперед на всех ключевых направлениях в ходе проведения антитеррористических мероприятий в Карабахе.
Об этом в соцсетях написал генеральный директор Каспийского института стратегических исследований (Россия) Игорь Коротченко.
«Армянские подразделения в значительной мере дезорганизованы вследствие потери связи и невозможности централизованного боевого управления», - отметил он.
Отметим, что в целях обеспечения положений Трехстороннего заявления, пресечения широкомасштабных провокаций в Карабахском экономическом районе, разоружения и вывода формирований вооруженных сил Армении с территорий Азербайджана, нейтрализации их военной инфраструктуры, обеспечения безопасности мирного населения, вернувшегося на освобожденные от оккупации территории, гражданских служащих, задействованных в строительно-восстановительных работах и азербайджанских военнослужащих, а также восстановления конституционного строя Азербайджанской Республики, в регионе начаты антитеррористические мероприятия локального характера.
В рамках мероприятий с применением высокоточного оружия на передней линии и в глубине выводятся из строя позиции формирований вооруженных сил Армении, их долговременные огневые точки, а также боевые средства и объекты военного назначения.
Гражданское население и объекты гражданской инфраструктуры не являются целями, из строя выводятся только легитимные военные цели.

# Центр азербайджанского языка и культуры открылся в МГЛУ



Центр азербайджанского языка и культуры открылся в Минском государственном лингвистическом университете, передает корреспондент БЕЛТА.
В открытии центра приняли участие ректор Азербайджанского университета языков Камал Абдуллаев, ректор МГЛУ Наталья Лаптева, начальник главного управления профессионального образования Министерства образования Сергей Пищов, заместитель начальника главного управления СНГ МИД Беларуси - начальник управления двусторонного сотрудничества со странами СНГ и Грузии Сергей Молунов, временный поверенный в делах Азербайджана в Беларуси Низами Рустамов.
"Центр позволит нашим студентам и преподавателям почувствовать атмосферу, культуру, дух народа Азербайджана для того, чтобы мы в дальнейшем могли успешно решать задачи развития сотрудничества наших стран, - отметила Наталья Лаптева. - Лингвистический университет, который участвует в подготовке специалистов по межкуль-турной коммуникации, прежде всего работающих в сфере экономики, внешней политики и дипломатических отношений, сейчас получит новый виток развития в подготовке специалистов, которые обязательно внесут свой существенный вклад в углубление отношений между нашими странами".
После торжественного открытия центра состоялся круглый стол "Беларусь и Азербайджан: история, современность и перспективы двустороннего сотрудничества", посвященный 30-летию установления дипломатических отношений между Беларусью и Азербайджаном.
Участники говорили об истории возникновения и развития дипломатических отношений между двумя странами, перспективы развития торгово-экономического, промышленного, сотрудничества в сфере образования, науки, культуры, обсуждался мультикультурализм и толерантность как основополагающие принципы Азербайджанского общества, а также существование языковой личности в поликультурном, мультилингвальном и многоэтническом обществе.

**www.belta.by**

# Азербайджан приостановил антитеррористические мероприятия

Министерство обороны Азербайджанской Республики сообщает, что с учетом обращения представителей армянских жителей Карабаха, поступившего через российский миротворческий контингент, достигнута договоренность о приостановлении антитеррористических мероприятий локального характера 20 сентября 2023 года в 13:00 на следующих условиях:
**1. Расположенные в Карабахском районе Азербайджанской Республики формирования вооруженных сил Армении и незаконные армянские вооруженные формирования складывают оружие, оставляют боевые позиции и воинские посты и полностью разоружаются. Подразделения вооруженных сил Армении покидают территорию Азербайджана, незаконные армянские вооруженные формирования расформировываются.**
**2. Параллельно сдается все вооружение и тяжелая техника.**
**3. Реализация вышеуказанных процессов обеспечивается в координации с российским миротворческим контингентом.**

# Администрация Алиева заявила о начале переговоров с карабахскими армянами

По предложению Администрации президента Азербайджанской Республики 21 сентября 2023 года в Евлахе состоится встреча с представителями армянских жителей Карабаха для обсуждения вопросов реинтеграции на основе Конституции и законов Азербайджанской Республики.

# Кремль: Действия Азербайджана в Карабахе законны



Пресс-секретарь президента РФ Дмитрий Песков заявил, что «де-юре Азербайджан действовал на своей территории». Так в Кремле ответили на обвинения Еревана насчет бездействия российских миротворцев в Карабахе.
«Мы не принимаем такие упреки в свой адрес, тем более после официального решения армянской стороны о признании Карабаха частью Азербайджана. Де-юре сейчас речь идет о действиях Азербайджанской Республики у себя на территории», - приводит пресс-служба Кремля слова Пескова.
Песков заверил, что продолжаются контакты и с Ереваном, и с Баку, и с армянами в Карабахе.

# Сельджук Байрактар: Мы с гордостью поддерживаем Азербайджан



Технический директор турецкой компании Baykar Сельджук Байрактар поделился постом в поддержку локальных антитеррористических мероприятий Азербайджана в Карабахе. Об этом глава компании, производящей беспилотники «Байрактар», написал на своей странице в X (ранее Twitter).
**В публикации на азербайджанском языке отмечено:**
«Всю историю мы разделяем одну судьбу и сегодня продолжаем это делать. Мы с гордостью поддерживаем праведное дело Азербайджана по Карабаху. Мы разделяли судьбу на протяжении всей истории и продолжаем это делать и сегодня. Мы с гордостью находимся рядом с Азербайджаном в праведном деле Карабаха».

# Азербайджан взял под контроль 90 боевых позиций Армении

Более 90 боевых позиций и стратегически важных позиций подразделений вооруженных сил Армении взяты под контроль. Об этом заявил 20 сентября на брифинге, посвященном антитеррористическим мероприятиям в Карабахе, начальник пресс-службы Министерства обороны полковник Анар Эйвазов.
По его словам, в качестве трофеев взяты принадлежавшие армянам 7 военных машин, 4 миномета, 1 танк, 2 боевые машины пехоты (БМП), а также большое количество оружия и боеприпасов.

# ЦБ Азербайджана огласил прогноз профицита счета текущих операций в 2023 году

Центральный банк Азербайджана (ЦБА) прогнозирует профицит счета текущих операций платежного баланса по итогам 2023 года на уровне 15 процентов ВВП, сообщает в среду Trend. Согласно информации ЦБА, сохранение благоприятной внешней среды сыграло особую роль в поддержании равновесия на валютном рынке.
«В январе-июне 2023 года сальдо платежного баланса по счету текущих операций составило 5,2 миллиарда долларов США, или 14,5 процента ВВП. В условиях профицитного платежного баланса и продолжающихся процессов додолларизации предложение на валютном рынке резко превышает спрос», - отмечает ЦБА.

# Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib



***Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” Sərəncamına uyğun olaraq, Azərbaycan Respublikasının Hesablama Palatası və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə 2023-cü il 15 sentyabr tarixində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.***

Konfransın keçirilməsində əsas məqsəd dayanıqlı inkişaf modelinə keçid şəraitində hesabatlılıq anlayışına yeni yanaşma, maliyyə göstəriciləri ilə yanaşı, qeyri-maliyyə, ekoloji, sosial və digər amilləri özündə ehtiva edən hesabatlılıq və nəzarət sisteminin qurulması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi üzrə fikir mübadiləsi aparmaq və tövsiyələr işləyib hazırlamaqdan ibarət olmuşdur.

***Konfrans öz işinə başlamazdan əvvəl tədbir iştirakçıları Fəxri Xiyabana gedərək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edib, məzarı önünə güllər düzüblər.***

Konfransda Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA), İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası (ACCA) kimi nüfuzlu beynəlxalq qurumları və 11 ölkəni – Azərbaycan, Türkiyə, Rusiya, Qazaxıstan, Gürcüstan, Latviya, Litva, Makedoniya, İtaliya, Hindistan və Fransanı təmsil edən 150-dən çox nümayəndə iştirak edib.



Beynəlxalq elmi-praktik konfransda Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub və Prezidentin konfransın işinə uğurlar arzuladığını əlavə edib.

***Daha sonra tədbirdə Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov və Auditorlar Palatasının sədri, professor Vahid Novruzov qonaqları salamlayıb, konfransın işinə uğurlar arzulayıb və konfransın əhəmiyyətindən bəhs ediblər.***

Konfrans çərçivəsində Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində təcrübələr müzakirə edilmiş, bu sahədə beynəlxalq əlaqələrin genişləndirilməsi zərurəti və onun reallaşdırılması şərh edilmiş, yaşıl iqtisadiyyat, sosial məsuliyyət və ekoloji tarazlığın təmin edilməsi sahəsində faydalı fikir mübadiləsi aparılmışdır.

*Konfransda həmçinin Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri Hüseyn Hüseynov, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Asəf Sarıkişiyev, Avropa Mühasiblər və Auditorlar Federasiyasının (EFAA) prezidenti Salvador Marin, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik Ziyad Səmədzadə, İstanbul Sertifikatlı İctimai Mühasiblər Palatasının (ISMMO) katibi Halim Bursalı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Səttar Möhbalıyev, Rusiya Federasiyası “Sodrujestvo” Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyasının İdarə heyətinin sədri İqor Kozırev, həmin qurumun İdarə heyətinin sədr müavini Nadejda Kobozeva, Azərbaycan Respublikası Hesablama Palatasının Səmərəlilik auditi şöbəsinin müdiri Zaur Vəliyev, həmin qurumun Hüquqi təminat və keyfiyyətə nəzarət şöbəsinin aparıcı məsləhətçisi Maya Rüstəmova, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İdarəetmə Sistemləri İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Qorxmaz İmanov, İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyasının (ACCA) Türkiyə, Azərbaycan və Gürcüstan ölkələri üzrə rəhbəri Filiz Demiröz, Makedoniya Respublikasının Sertifikatlı Auditorlar İnstitutunun prezidenti Draqan Dimitrov, Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev, Auditorlar Palatası Şurasının üzvü, «Ernst & Yanq Holdinqs (SiAyEs) Bi. Vi.» şirkətinin Azərbaycan Respublikasındakı filialının idarəedici partnyoru İlqar Vəliyev, “Deloitte & Touche” MMC-nin Audit üzrə partnyoru Camal Həsənov, Hindistan İmtiyazlı Mühasiblər İnstitutunun Mərkəzi Şurasının üzvləri Chandrashekhar Vasant Chitale və Durgesh Kabra, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professoru Saleh Məmmədov, Latviya Sertifikatlı Auditorlar Assosiasiyasının İdarə heyətinin üzvü, Təhsil komitəsinin sədri Sandra Vilcane, Latviya Sertifikatlı Auditorlar Assosiasiyasının üzvü, Andlı Auditor, Sertifikatlı PL/TMM üzrə mütəxəssis Kiril Kondratovs, Gürcüstan Mühasiblər İttifaqının Baş direktoru Tata Beridze, Azərbaycan İqtisadçılar İttifaqının sədr müavini, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) dosenti Elşad Səmədzadə, “JPA International” prezidenti Jak Potdevin, “JPA International” Qafqaz və Orta Asiya ölkələri üzrə rəhbəri Giorgi Rusiashvili, Litva Auditorlar Palatasının Prezidenti İngrida Puriene və həmin qurumun vitse-prezidenti Saulius Lapsinskas məruzələrlə çıxış ediblər.* Konfransın yekununda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, habelə təqdim edilən materialların toplu şəklində nəşr etdirilməsi və tövsiyələrin hazırlanması qərara alınıb.

Konfrans çərçivəsində 16 sentyabr tarixində iştirakçılar Heydər Əliyev mərkəzini ziyarət edib, sonra isə xarici ölkələrin audit və mühasibat qurumlarının nümayəndələri ilə auditin normativ hüquqi bazasına, metodiki təminatına, təşkili və tənzimlənməsinə dair təcrübə mübadiləsi aparıb və Bakı şəhəri ilə tanış olublar.



*Elmi-praktik konfrans haqqında geniş materialı qəzetimizin növbəti sayında izləyin*




## “Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq” mövzusunda beynəlxalq elmi-praktiki konfransın iştirakçılarına

*Hörmətli konfrans iştirakçıları!*

Sizi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq” mövzusunda beynəlxalq elmi-praktiki konfrans münasibətilə səmimi qəlbdən salamlayıram.

Məhz Heydər Əliyevin demokratik, hüquqi dövlət quruculuğu yolunda yorulmaz səyləri, polad iradəsi sayəsində Azərbaycanda şəffaf maliyyə və audit sistemi qurulmuşdur. Anadan olmasının 100 illiyini qeyd etdiyimiz bu ildə biz Ulu Öndər tərəfindən təməli qoyulmuş, dinamik inkişaf edən güclü iqtisadiyyat görürük.

Müstəqilliyimizin ilk illərində iflasa uğramış ölkə iqtisadiyyatını dirçəltməyin yeganə yolunu bazar iqtisadiyyatına keçiddə, dünya iqtisadiyyatına inteqrasiyada görən Ümummilli Lider irimiqyaslı islahatlara start vermişdir. Onun rəhbərliyi ilə korporativ idarəetmənin təkmilləşdirilməsi, azad rəqabət mühitinin dəstəklənməsi sahəsində görülən fundamental tədbirlər azad sahibkarlığın inkişafını ön plana çəkmişdir. Eyni zamanda Heydər Əliyevin uzaqgörən siyasəti, böyük dövlətçilik təcrübəsi və strateji baxışı ölkənin iqtisadi inkişafını təmin etməklə yanaşı, çoxvektorlu iqtisadi siyasətimizin əsasını qoymuş, Azərbaycana dünyada etibarlı tərəfdaş statusu qazandırmışdır.

Azərbaycanda şəffaflığın artırılması və maliyyə nəzarətinin gücləndirilməsi sahəsində beynəlxalq audit və beynəlxalq mühasibat uçotu standartlarına keçidin əhəmiyyəti xüsusi qeyd edilməlidir. Həyata keçirilmiş kompleks tədbirlər yeni dövrün iqtisadi çağırışlarını nəzərə almaqla, ölkədə maliyyə-uçot sisteminin beynəlxalq tələblər əsasında təkmilləşdirilməsinə, iqtisadiyyatımızın dünya təsərrüfat sisteminə inteqrasiya imkanlarının gücləndirilməsinə şərait yaratmışdır.

Hesabatlılığın və obyektiv keyfiyyətli informasiya təminatının başlıca amili qismində şəffaflıq həm də resurslardan səmərəli və məqsədyönlü istifadənin əsası kimi dəyərləndirilməlidir. Müasir dövrümüzün qlobal çağırışlarına effektiv və çevik reaksiya verilməsi, eləcə də hazırkı dönəmdə Azərbaycan üçün ən önəmli məsələlərdən olan işğaldan azad edilmiş ərazilərdə quruculuq-bərpa işləri ölkəmizdə maliyyə sektorunda aparılan islahatların daha da gücləndirilməsini, maliyyə imkanlarının səfərbər olunmasını labüd edir. Dövlətin maliyyə resurslarının qorunub saxlanılması, onlardan məqsədyönlü, qənaətli və səmərəli istifadə üçün bu sahədə nizam-intizamın möhkəmləndirilməsi, şəffaflığın artırılması və dövlət nəzarəti mexanizminin təkmilləşdirilməsi vacibdir. Həmçinin milli iqtisadiyyatımızın dayanıqlı inkişafını şərtləndirən amillər qismində yeni dövrün tələblərinə uyğunlaşdırılmış dövlət nəzarəti və müstəqil audit sisteminin, habelə qeyri-dövlət nəzarətinin önəmli bir forması kimi ictimai nəzarətin əhəmiyyətini xüsusi vurğulamaq lazımdır.

Hörmətli konfrans iştirakçıları!

Bugünkü konfrans dayanıqlı inkişaf, hesabatlılıq, şəffaflıq məsələləri ilə bağlı qlobal gündəlikdə dayanan çağırışların və imkanların müzakirəsi, bu sahədə qabaqcıl təcrübə mübadiləsi üçün əlverişli fürsətdir. İnanıram ki, tədbir hesabatlılıq və şəffaflıq mühitinin daha da yaxşılaşdırılması imkanlarının müəyyənləşdirilməsi baxımından faydalı olacaq, ölkələrimizin rifahının yüksəlməsinə töhfə verəcəkdir.

Bir daha sizə ən xoş arzularımı yetirir, konfransın işinə uğurlar diləyirəm.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri,**
**15 sentyabr 2023-cü il**

# İnformasiya təhlükəsizliyinin möhkəmlənməsinə fərqli baxış perspektivi

***Təhlükəsizliyə diqqət etməyən şəxsin, müəssisənin və təşkilatların gördüyü iş əsgəri müharibəyə silahsız göndərmək kimidir.***

İnformasiya texnologiyalarının inkişafı özü ilə təhlükəsizlik məsələlərini də aktuallaşdırır. İnformasiya texnologiyalarının inkişafına və onunla paralel təhlükəsizliyə diqqət etməyən şəxs, müəssisə və təşkilatların gördüyü iş müharibəyə əsgəri silahsız göndərməklə eyni mahiyyəti daşıyır. İtki verəcəyi qaçılmazdır.

Təhlükəsizliyin əsas kökü əməliyyat sistemindən asılıdır. Bir binanın təməli, strukturu nədirsə, İT avadanlıqlar üçün də əməliyyat sistemi eynidir. Təməli olmayan bina üzərində nə qədər yüksək keyfiyyətli materiallardan istifadə edilsə də, təməl sarsılarsa, keyfiyyətli materialların faydası olmayacadır. Fərqli əməliyyat sistemlərində olan boşluqlar və öz təcrübələrini artırmaq bəhanəsi ilə istifadəçilərdən alınan razılıqlar, toplanılan məlumatlar və s. araşdırılması çətin və şübhəli məsələlərdir. Paralel olaraq, əməliyyat sisteminin pullu olması bir çox istifadəçiləri pirat ƏS-inə yönləndirir. Aydındır ki, pulsuz alternativlər və istifadəçinin təhlükəsizliklə bağlı məlumatsızlığı bu məsələni bir qədər də alovlandırır.

Türkiyə Pardus adlanan öz əməliyyat sistemini dövlət dəstəyi ilə 2003-cü ildə TUBİTAK tərəfindən yaratmışdır və dövrün tələblərinə uyğun olaraq daima inkişaf etdirir, hərbi qurumlarda və bəzi dövlət orqanlarında tətbiq edir, həmçinin tətbiqi genişləndirilir. Eyni zamanda, qonşu Rusiyada hökumətin 2010-cu ildə verdiyi qərarla Astra Linux ƏS sisteminin yaradılmasına başlandı. Silahlı qüvvələrin və kəşfiyyat orqanlarının ehtiyacını ödəmək məqsədi və digər xarici əməliyyat sistemlərinin uzaqlaşdırılacağı barədə elanlar edildi. Hətta Rusiya öz istehsalı olan "Elburus" adlı mikroprosessorlarına Astra Linux əməliyyat sistemini köçürdüyünü 2018-ci ildə elan etdi. İrəlidə fikrimcə, milli əməliyyat sisteminin yaradılması və tətbiq olunması dövlətimizin maddi xərclərini azaldacaq, valyuta ehtiyatlarının qorunmasına səbəb olacaq.



Digər arzuolunan məsələ informasiya texnologiyaları üzrə avadanlıqların ölkəmizdə istehsalının genişləndirilməsidir. Aydındır ki, bu məsələnin çox zəhmət tələb edən müəyyən iqtisadi əsasları var və potensial alıcılıq, rəqabətlilik, bazarda ayaqda qalmaq üçün tələb-təklif qaydalarını da özü ilə paralel gətirir. Amma bu, bizi dayandırmamalıdır və həvəsdən salmamalıdır. İnandırmaq istəyirəm ki, təhlükəsizlik ən qiymətli məsələdir və işə başlamaq o işin yarısını bitirmək deməkdir. Necə ki, müzəffər ordumuz torpaqlarımızı qoruyur və müdafiə sahəsində istehsalatımız gün keçdikcə güclənirsə, kənardan gələn hazır İT texnologiyalar, avadanlıqlar və həllər bizi öz istehsalatımıza biganə qoymamalıdır. Biz daha da güclənməliyik.

Açıq mənbələrdə göstərilən tarixi hadisələrdən öyrənirik ki, qardaş Türkiyədə Osmanlı dövründən keçən əsrin ortalarına qədər havacılıq texnologiyaları və təyyarə istehsalı ilə bağlı inkişaf daim təqib edilmişdir. Amma İkinci Dünya müharibəsindən sonra 1950-ci illərdə ABŞ Marşall yardım layihəsi ilə Türkiyənin hava sənayesinə yardım göstərdi. Bu yardımlardan sonra Türk Hava Qurumu ordudan yetərli sifariş ala bilmədi və maliyyə çətinliklərinə düşdü. 1952-ci ildə fəaliyyətinə son verən Türk Hava Qurumu işlərini Makina Kimya Sənayesinə təhvil verdi. Bu qurum da Model 3 adlı təyyarələri istehsal etmək qərarı alsa da, yenidən ABŞ-ın Türkiyəyə Lockheed T-33 tipli reaktiv təlim təyyarələrini bağışlaması ilə Türkiyədə istehsal qərarından vaz keçildi və 1962-ci ildə bütün havacılıq fəaliyyəti dayandı. Sonra Türkiyənin tarixi hadisələrdən dərs çıxararaq gəldiyi indiki yüksək səviyyə hamımızın gözü önündə baş verir. Görürük ki, xarici şirkətlərin yardım və endirimləri ilkin olaraq xoş görünsə də, gələcək plan və perspektivləri xoş görünmür və fərqli məqsədlər daşıyır. Bu, bizim üçün də gözəl misaldır. Hal-hazırda xaricdən gələn İT avadanlıqları və onların əməliyyat sistemlərini tam sınaqdan keçirmək imkanlarımız yoxdur. Sadəcə alırıq, konfiqurasiya edirik və işlədirik. Xarici İT şirkətləri yaxşı marketinq siyasəti həyata keçirərək, bir çox ölkələrdə etdiyi kimi, bizdə də yüksək ideya müəllifi yox, satdığı avadanlıqları yaxşı konfiqurasiya edə bilən mütəxəssislər yetişdirir. Konfiqurasiya etməyi öyrəndikdən sonra isə sertifikatlar verir, stimullaşdırır, iş imkanlarının yaranmasına şərait yaradır. İdeya müəllifliyi və öz yanaşma və istehsalatımız olmadığı müddətcə özümüzü hazır hiss etməməliyik.

44 günlük müharibədə Bayraktar pilotsuz dronlarına kamera satmayanlar sabah bizim hansısa haqlı davamızda xaricdən aldığımız İT avadanlıqlara servis, qarantiya, çip və digər ehtiyat hissələri və yenilərinin ixracını dayandıra və şübhələr var ki, mövcud işləyən avadanlıqları da bloklaya bilərlər.



**Bəhruz Əliyev,**
**informasiya texnologiyaları üzrə mühəndis-ekspert, tədqiqatçı**

Yəqin bilirsiniz ki, artıq bəzi post-sovet ölkələrində bu kimi istehsalatla bağlı işlər mövcuddur. Xüsusilə, Baltikyanı dövlətlərdə istehsal mövcuddur və biz bu təcrübələri də dəyərləndirə bilərik. Biz də Open-Source (Açıq Mənbə) sistemlər əsasında yeni cihazların istehsalına başlamaq və zaman keçdikcə əsas detallarının ölkədə istehsalına çalışmalıyıq. Təbii ki, bu, uzun vaxt tələb edəcək, amma bizdən bir sonrakı nəsillərə milli mayak rolunu oynayacaq.

Bunun üçün arzu ediləndir ki, böyük İT şirkətləri ölkəyə xarici İT avadanlıqların satış və servisindən daha çox İT avadanlıqların ölkəmizdə istehsalı ilə bağlı məsələlərə təkan versinlər. Bunun üçün fikrimcə, texnoparklarda yaranan imkanlardan istifadə edərək, istehsalı ölkəyə çəkmək mümkündür. Bu istehsalatda işləyən tələbələr, işçilər bir neçə il sonra təcrübəli yerli mühəndislərə çevriləcəklər. İndi bu işlərə başlasaq, illər sonra sıfırdan İT avadanlıqların tam istehsalından danışa biləcəyik. Əks halda rəqib yox, sadə istifadəçi olmaqdan kənara çıxa bilməyəcəyik. İT mühəndisliklə bağlı universitetlərdə ixtisasların tələblərə uyğun tərtib olunması, İngiltərə, Yaponiya, ABŞ, Sinqapur kimi ölkələrdə olan İT yanaşmaların tətbiqi bizə yeni pəncərələr aça, inkişaf etmiş ölkələrin bu sahədə təcrübələri baxışımızı bir az da genişləndirə bilər.

**Həqiqi elm və tədqiqat əslində həm də iqtisadi güc və qazanc deməkdir. Təsadüfi deyil ki, 1 barel neft ilə 1 ədəd printer katricinin qiyməti haradasa eynidir.**

Eyni zamanda, İT sahəsində elmin inkişafı, tədqiqatların artması və sənayedə real tətbiqi ciddi əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, Yaponiya büdcəyə patentlərdən gələn qazanc üzrə lider ölkədir. İnformasiya texnologiyalarının müxtəlif sahələri üzrə bakalavr, magistr, doktoranturada ixtisasların daha da çoxalması sevindirici olardı. Bütün müəssisələrdə İT kadrların inkişafına münasib şərait yaradılması arzuolunandır. Çünkü İT-nin olmadığı sahə yoxdur. Varsa, bazardan silinib çıxmağa məhkumdur.

Ola bilər ki, elmə verilən təkanın ilkin göstəriciləri zəif olsun, amma uzun müddətli sərmayə sayılan elm sahəsinin zaman keçdikcə nələr gətirə biləcəyi Yaponiya, ABŞ və Sinqapur kimi ölkələrin misalında aydındır.

Konfiquratorluqdan yaradıcılığa gedən yolu bayrağımızın 8 guşəli ulduzundakı 8 yol kimi obrazlı təsvir etmək istərdim:

***1. Beyinlərdə işıq yanmalıdır;***
***2. Dilimiz bu məsələləri müzakirə etməlidir;***
***3. Təşviq olmalıdır;***
***4. Təşəbbüslər göstərilməlidir;***
***5. Birliklər yaranmalıdır;***
***6. Planlar və hədəflər təyin olunmalıdır;***
***7. Əlaqədar kadrlar toplanmalı və komandalar qurulmalıdır;***
***8. İşlər bölünməli, vaxtlar təyin olunmalı və yüksək inamla yorulmadan davam etməliyik.***

Ümummilli Liderimiz Heydər Əliyevin qurduğu, müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə torpaqlarını azad edən dövlət qüdrətlidir və böyükdür. Bizim heç birimizin kiçiklik kompleksi yaşamağa haqqımız yoxdur. Böyüklük beyinlərdə, təsəvvürlərdə başlayır. Hər bir həmkarıma bu yolda birlikdə addımlamağı, birlikdə səy göstərməyi arzulayıram.

# Gündəlik xam neft hasilatı 498 min barel olub

Cari ilin avqust ayında gündəlik neft (kondensatla birlikdə) hasilatı 620 min barel olub. Bunun 498 min barelini xam neft, 122 min barelini kondensat təşkil edib.

Energetika Nazirliyindən bildiriblər ki, "OPEC plus" əməkdaşlığı çərçivəsində 2023-cü ilin sonuna kimi Azərbaycanın ixtisarlarla bağlı öhdəliyi gündəlik 33 min barel, gündəlik xam neft hasilatı üzrə kvotası isə 684 min bareldir.



# Xaricdən 402 milyon dollarlıq dərman alınıb



Bu ilin yanvar-avqust aylarında Azərbaycan 401 milyon 483 min ABŞ dolları dəyərində əczaçılıq məhsulları idxal edib.

Dövlət Gömrük Komitəsinin aylıq hesabatına görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 7% azdır.

8 ay ərzində Azərbaycana 20 232 ton əczaçılıq məhsulları idxal olunub ki, bu da 1 il əvvələ nisbətən 6% çoxdur.

Hesabat dövründə əczaçılıq məhsulları üzrə idxal Azərbaycanın ümumi idxalının 3.60%-ni təşkil edib.

# Azərbaycan əmtəə qazının hasilatını artırıb

Azərbaycan 2023-cü ilin yanvar-avqust aylarında əmtəə qazının hasilatını 2022-ci ilin analoji dövrü ilə müqayisədə 5,3 faiz artırıb.

Trend bu barədə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə istinadən xəbər verir.

Komitənin məlumatlarına görə, bu ilin ilk 8 ayı ərzində Azərbaycanda təbii qaz hasilatı 32,2 milyard kubmetr, o cümlədən əmtəə qazının hasilatı 24,1 milyard kubmetr təşkil edib. Təbii qaz hasilatı isə illik hesablamada 5 faiz artıb.

Xam neft, o cümlədən əmtəə neftinin hasilatında isə bu müddət ərzində azalma müşahidə olunub.

Beləliklə, 2023-cü ilin yanvar-avqust aylarında Azərbaycanda kondensatla birlikdə 20,2 milyon ton xam neft hasil olunub ki, bunun təqribən 20,1 milyon tonu əmtəə neftinin payına düşüb. Bununla Azərbaycan kondensatla birlikdə xam neft hasilatını illik hesablamada 7,5 faiz azaldıb. Həmçinin əmtəə neftinin hasilatı il ərzində 7,6 faiz azalıb.




Qeyd edək ki, Azərbaycanda neft hasilatının 65 faizdən çoxu "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun payına düşür.

2022-ci ildə Azərbaycanın sübut olunmuş neft ehtiyatlarının həcmi 2021-ci ildən sonra dəyişməz olaraq 7 milyard barel qiymətləndirilir.

Həmçinin qeyd edək ki, Azərbaycan şelfdə mühüm qaz ehtiyatlarına malikdir. Qiymətləndirmələrə görə, nəhəng "Şahdəniz" yatağının öyrənilmiş ehtiyatları 1,2 trilyon kubmetr qaz və 240 milyon ton kondensat təşkil edir.

Bundan başqa, Azərbaycanın karbohidrogen yataqları arasında "Ümid-Babək" bloku da yer alır. İlkin məlumatlara əsasən, perspektiv "Babək" strukturunun ehtiyatları 400 milyard kubmetr qaz, 80 milyon ton kondensat həcmində qiymətləndirilir.

Digər perspektiv strukturlara gəlincə, "Şəfəq-Asiman" blokunun proqnoz ehtiyatları 500 milyard kubmetr qaz və 65 milyon ton kondensat təşkil edir. "Abşeron" yatağından isə birinci mərhələdə 1,5 milyard kubmetr qaz hasilatı planlaşdırılır.

*Qarabağ uğrunda döyüşən qəhrəmanları unutmayaq!*

# Pəhlivan Fərzəliyev (1958-1992)



Azərbaycan zabiti, baş leytenant, Azərbaycanın Milli Qəhrəmanı, Qarabağ müharibəsi şəhidi Pəhlivan Əhliman oğlu Fərzəliyev 27 sentyabr 1958-ci ildə Füzuli rayonunun Qobu Dilağarda kəndində doğulmuşdur. Doğma kənddə səkkizinci sinfi başa vurduqdan sonra Şuşa Kənd Təsərrüfatı Texnikumuna daxil olmuşdur. İdmanla məşğul olmuş, Şuşada keçirilən çempionatda Qarabağ çempionu adını qazanmışdır. O, 1979-cu ildə orduya çağırılmışdır. Hərbi xidmətdən tərxis olunduqdan sonra isə Qazaxıstanın Aktyubinsk şəhərinə gedir və orada daxili işlər orqanlarında işə başlayır. O, təhsilini davam etdirməyi də unutmur. Sənədlərini Orenburq Politexnik Universitetinə verir. 1986-cı ildə universitetin avtomobil nəqliyyatı fakültəsini bitirir, 4 il Aktyubinsk şəhər Daxili İşlər Orqanlarında çalışır. O, 1990-cı ildə baş leytenant rütbəsində Vətənə dönür. Bir az sonra onu Füzuli rayon DİŞ-də növbətçi inspektor vəzifəsinə təyin edirlər. Sonra Füzuli rayon DİŞ-də post-patrul rotası yaradılır. 1991-ci ilin mart ayında o, rotanın 3-cü taqımına komandir təyin olunur. Yaxşı xidmətinə görə ona ikinci bir vəzifə - BTR-in ekipaj komandiri vəzifəsi etibar edilir.

**Döyüşlərdə iştirakı**

BTR-in ekipaj komandiri olan Pəhlivanın taqımı Füzuli rayonundakı sərhəd kəndlərinin qorunmasında mərdliklə vuruşurdu. Onun şücaəti nəticəsində Xələfşə kəndində bir erməni bölüyü və bir BTR məhv edilmişdi. 1992-ci il 11 apreldə taqım komandirinin son döyüşü oldu. Həmin gün Qacar kəndi uğrunda gedən ağır döyüşlərdə düşmən postunu ələ keçirərkən PDM-dən atılan mərmidən baş leytenant qəhrəmancasına həlak oldu. O, Füzuli rayonunun Qobu Dilağarda kəndində dəfn edilmişdir.

Pəhlivan Əhliman oğlu Fərzəliyev evli idi. İki oğlu, bir qızı yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə baş leytenant Fərzəliyev Pəhlivan Əhliman oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Bakı şəhərindəki qəsəbələrdən biri qəhrəmanın adını daşıyır.

# Britaniyada inflyasiya rekord səviyyəyə enib

Milli Statistika İdarəsinin (ONS) aylıq hesabatına görə, Böyük Britaniyanın İstehlak Qiymətləri İndeksi (CPI) avqust ayında illik 6.7% təşkil edib. İnflyasiya səviyyəsi ardıcıl altıncı aydır ki, aşağı düşüb və bu, 2022-ci ilin fevralından bəri ən aşağı CPI səviyyəsidir. İyulda Böyük Britaniyanın istehlak qiymətləri indeksi illik müqayisədə 6.8% olub.

Benzin və dizel yanacağının bahalaşması fonunda inflyasiyanın yavaşlaması bir çox analitiklər üçün sürpriz olub. Lakin bu artım ərzaq qiymətlərində nisbətən kiçik artımla kompensasiya edilib. Avqustda ərzaq və alkoqolsuz içkilərin qiymətləri cəmi 0.3% artıb. Bir il əvvəl, eyni dövrdə qiymət artımı 1.5% olub. Avqustda ərzaq məhsullarının illik inflyasiyası 13.6%, iyulda 14.9% təşkil edib.



Böyük Britaniyanın maliyyə naziri Ceremi Hant qeyd edib ki, avqust məlumatları hökumətin cari fiskal siyasətinin effektivliyini və inflyasiya hələ də çox yüksək olduğu üçün onun davam etdirilməsinin zəruriliyini göstərir.

# Qlobal borc rekord səviyyəyə çatıb



Dünya üzrə faiz dərəcələrinin artmasına baxmayaraq, qlobal borc 2023-cü ilin ikinci rübündə rekord həddə – 307 trilyon dollara çatıb. Bu barədə "Reuters" Beynəlxalq Maliyyə İnstitutunun (IIF) hesabatına istinadən yazır.

Qlobal borc dedikdə bütün ölkələrin hökumətlərinin, banklarının, qeyri-maliyyə korporasiyalarının və ev təsərrüfatlarının borcları nəzərdə tutulur. IIF hesabladığı kimi, 2023-cü ilin birinci yarısında 10 trilyon dollar, son on ildə isə 100 trilyon dollar artıb. Qlobal borcun qlobal ÜDM-ə nisbəti ikinci rübdə 336 faizə yüksəlib. Göstərici iki rüb ardıcıl olaraq artıb, 2023-cü ilə qədər yeddi rüb azalıb.

İqtisadçıların hesabatından belə çıxır ki, bu nisbətin artmasının əsas səbəbi ÜDM-in artım tempinin aşağı düşməsi və inflyasiya olub. Üstəlik, yığılmış borcun 80 faizindən çoxu inkişaf etmiş ölkələrin payına düşür. Göstəricidə ən böyük artım ABŞ, Yaponiya, Böyük Britaniya və Fransada qeydə alınıb. İnkişaf etməkdə olan ölkələr arasında Çin, Hindistan və Braziliya borclarını ən sürətlə artırıb.

# Avrozonada inflyasiya 5.2%-ə qədər yavaşlayıb

Avropa İttifaqının Statistika İdarəsinin (Eurostat) yekun məlumatlarına əsasən, 2023-cü ilin avqustunda Avrozonada istehlak qiymətləri illik müqayisədə 5.2% artıb. Beləliklə, inflyasiya iyulda 5.3%-dən aşağı düşərək, ötən ilin yanvarından bəri ən aşağı səviyyəyə çatıb.

Avrozonada enerji qiymətləri avqustda illik müqayisədə 3.3% ucuzlaşıb. Ərzaq, alkoqol



və tütün məmulatlarının qiymətlərində artım bir ay əvvəlki 10.8%-dən 9.7%-ə enib. Xidmət sektorunda inflyasiya 5.6%-dən 5.5%-ə düşüb.

Avqustda ərzaq və enerji istisna olmaqla istehlak qiymətlərinin artımı ("CPI Core" indeksi) proqnozu gözlənildiyi kimi 5.3% səviyyəsində təsdiqlənib. İyul ayında "CPI Core" indeksi 5.5% artıb.

# Mərkəzi Gömrük Hospitalında elmi konfrans keçirilib

16 sentyabr 2023-cü il tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin, Mərkəzi Gömrük Hospitalının və "Bayer" şirkətinin birgə təşkilatçılığı ilə "Müxtəlif patologiyalarda dinamik kontrastlı MRT müayinələri və onların diaqnostik xüsusiyyətləri" mövzusunda Elmi Konfrans və Ustad dərsləri (Master klass) keçirilib.






Konfransın rəsmi açılış hissəsində Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev həm öz adından, həm də Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, tibb xidməti general-mayoru Ceyhun Məmmədovun adından konfrans iştirakçılarını salamlayaraq müxtəlif patologiyalarda dinamik kontrast MRT müayinəsinə həsr olunmuş konfransın və ustad dərslərin əhəmiyyətini qeyd edib.

Dr.İsmayıl Əfəndiyev MRT-nin hazırda rutin bir müayinə metoduna çevrildiyini qeyd edərək, hazırda artıq ölkəmizin bütün tibb müəssisələrində, o cümlədən Mərkəzi Gömrük Hospitalında müasir standartlara cavab verən 2 MRT aparatının olduğunu, hətta icbari tibbi sığorta ilə pasiyentləri pulsuz müayinə etməyin mümkünlüyündən danışıb. Dr.İsmayıl Əfəndiyev konfransa bir çox dövlət və özəl tibb müəssisələrinin nümayəndələrinin də qatıldığını xüsusi qeyd edib, konfrans iştirakçılarını bu tədbirdən yararlanmağa, maksimal faydalanmağa, ustad dərslərdən praktik vərdişlər əldə etməyə çağıraraq, bu tədbirin onların gələcək fəaliyyətlərinə təsirini, paylaşılan bu nailiyyətlərin tətbiqinə imkan verəcəyini vurğulayıb.

Konfransın rəsmi açılış hissəsində Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, Milli Məclisin Səhiyyə Komitəsinin sədr müavini, t.e.d., əməkdar həkim Rəşad Mahmudov davamlı tibbi təhsilə fayda verə biləcək bu cür tədbirlərin mütəmadi keçirilməsinin ənənə halını almasını müsbət qiymətləndirərək, qeyd edib ki, əvvəllər tibdə çox geniş istifadə olunmayan ürək patologiyalarında kardiak MRT-nin rolu dünyada inanılmaz bir şəkildə artmışdır. Bu gün tək ürək patologiyalarında deyil, onkoloji xəstəliklərdə, süd vəzi xərçəngində, beyin və s. patologiyalarında da MRT-nin imkanları və üstünlükləri danılmazdır.

Azərbaycan Radioloqlar Cəmiyyətinin sədri Yunus Əfəndiyev rəhbərlik etdiyi qurumun yaranmasından və fəaliyyətindən danışaraq, bildirib ki, Azərbaycan Radioloqlar Cəmiyyəti 2015-ci ildə yaranıb və 2019-cu ildə faktiki olaraq dövlət qeydiyyatına alınıb. Onun sözlərinə görə, əgər 2000-ci ildə Azərbaycanda KT və MRT avadanlıqlarının sayı çox az idisə, ötən ildən respublikada 200 KT cihazı və 100-ə qədər MRT cihazları mövcuddur. Bununla əlaqədar olaraq, yüksəkixtisaslı, peşəkar radioloqların da sayı artmaqdadır.

Konfransda yüksəkixtisaslı mütəxəssislər tərəfindən süd vəzi və prostat xərçəngi, qaraciyər patologiyaları, beyin törəmələri və sellar patologiyalarda MRT müayinələrinin diaqnostik əhəmiyyətinə dair təqdimatlar edilib və auditoriyanı maraqlandıran suallar cavablandırılıb. Mərkəzi Gömrük Hospitalının Radiologiya şöbəsinin rəisi, uzman radioloq Eldəniz Hüseynov "Kardiak MRT nələr vəd edir?", Milli Onkologiya Mərkəzinin Radiologiya şöbəsinin rəisi Anar Kazımov "Süd vəzi xərçənginin diaqnostikası və proqnozunda MRT müayinəsinin rolu" mövzuunda, Baku Medical Plazanın radioloqu Ruslan Əsədov, Baku Medical Plazanın radioloqu Pərviz Kuliyev, Liv Hospitalın radioloqu Pərviz Səmədov, radioloq Pərvanə Əsgərova müxtəlif mövzularda çıxış ediblər. Daha sonra hər kəs üçün əlçatanlığı təmin etmək məqsədilə Konfrans hibrid formatda həyata keçirilib. 100-ə yaxın iştirakçının əyani, 300-ə yaxın iştirakçının distant iştirak etdiyi Konfrans zamanı "Beyin perfuziya, traktoqrafiya və spektroskopiya müayinələri" barədə ustad dərslər də təşkil edilib.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Davamlı Tibbi Təhsil üzrə elm və tədris tədbirlərinin akkreditasiya Qaydaları" əsasında akkreditasiya olunaraq 4 DTT balı ilə qiymətləndirilmiş Konfrans Mərkəzi Gömrük Hospitalının rəsmi facebook səhifəsindən də canlı yayımlanıb.

**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi Dilarə Zamanova**




**Azəri Light və Brent markalı neftin bir barelinin 14 – 20 sentyabr tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**


Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ



ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev



www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500